# "Sonuncu dəfə zəng edəndə gülürdü"

## Bir gün sonra Hadrutda şəhid oldu



### "Nyu-York Times" qəzeti də qəhrəmanımızdan reportaj hazırlayıb

**Deyirlər, torpaq su ilə qarışanda palçıq, qanla qarışanda vətən olur. 44 günlük vətən müharibəsində əsgərlərimiz, zabitlərimiz bunu sübut etdilər. Onlar İkinci Qarabağ savaşının tarixini öz qanları ilə yazdılar - döyüşərək, istehkamları dağıdaraq, səngərləri yararaq. Deyəsən, bütün şəhidlərimiz, qazilərimiz bir aydan çox çəkən hərbi əməliyyatlarda eyni cür davranıblar - üzlərindən təbəssüm, gözlərindən məğrurluq əskik olmayıb.**

Hər biri son anadak düşmənin gözünün içinə dik baxıb, ermənini Qarabağa ayaq basmağa peşman edib. Eləcə də 1994-cü il təvəllüdlü Əliyev Eldar. Cəmi 26 yaşı olan bu gənc həyatının hələ enişli-yoxuşlu yollarını görməmiş ən yüksək zirvəni fəth etdi. İndi həmin zirvədən Yerdəkiləri - əzizlərini, valideynlarini, dostlarını, o cümlədən də Qarabağı izləyir. Ruhu şaddır. Çünki uğrunda canından keçən torpaqlar artıq azadlıqdadır.

**"Şərq" olaraq qəhrəmanlarımızı cəmiyyətə tanıtmağa davam edirik. Budəfəki müsahibimiz Eldarın atası Süleyman Əliyevdir. O, oğlu haqqında bunları deyib:** "Uşaqlığından fərqlənirdi. Gələcəyinə inananlar az deyildi. Oğlum orta təhsili 70 nömrəli məktəbdə alıb. Azərbaycan Dövlət İqtisad Universitetini bitirdikdən sonra Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonundakı motoatıcı hərbi hissədə xidmət edib. Müharibə başlayanda yüzlərlə gənc kimi onu da döyüşməyə çağırdılar. Heç tərəddüd etmədən getdi. Oğlum pulemyotçu idi. Bəlkə də riyaziyyatı sevməyindən irəli gəlirdi ki, intizamına, dəqiqliyinə görə seçilirdi".

*S.Əliyev, həmçinin övlad itkisinin təsəllisini vətənin hürriyyətində tapdığını bildirib:* "Sonuncu dəfə oktyabrın 12-də zəng etmişdi. Gülürdü. Deyirdi ki, hər şey yaxşıdır. Bir gün sonra Hadrudda şəhid oldu. Xəbəri isə oktyabrın 18-də aldıq. Oğlum Füzulidə, Cəbrayılda döyüşüb. Həmin gündən bu yana müvafiq qurumlar bizimlə maraqlanır, diqqət və qayğı göstərirlər. Hətta dünyaca məşhur "Nyu-York Times" qəzetindən gəlmişdilər. Reportaj hazırladılar. Düzdür, bunların heç biri oğlumu geri qaytarmaz, lakin yenə də vətən sağ olsun!".

**Bacısı Nərmin Qasımova isə vurğulayıb ki, o, indi olduğu kimi, daim qardaşı ilə fəxr edəcək:** "Eldar savadına, intellektinə görə yoldaşlarından fərqlənirdi. 2011-ci ildə oxuduğu universitetdə fakültələrarası "Nə? Harada? Nə zaman?" yarışında birinci yeri tutur. Ardınca "Breyn rinq"də də eyni nəticəni qazanır. "Gənclər fondu"nun təşkil etdiyi "Tələbələrarası I İqtisadi biliklər olimpiadası"nın final mərhələsində də uğurlu mübarizə aparıb. 2016-cı ildən iri MMC-lərdən birində iş həyatına başlayan qardaşım buvaxtadək müxtəlif könüllülük proqramlarında iştirak edib.

Şahmat və müharibə-strategiya oyunları oynamağı çox sevirdi. Napaleon haqqında araşdırır, öyrənirdi. Elə buna görə də dostları onu "Napo" deyə çağırırdı. Yoldaşları da qardaşım haqqında yüksək fikirdədirlər. Onu dəryaya bənzədirlər. Ola bilsin, Eldar, həqiqətən dərya idi. Hər halda çox maraqlı və fərqli insan idi. Şablon həyatı heç sevmirdi".



**"Eldar dayımızın qanını yerdə qoymadı. Buna əminəm!"**

**O, son günləri belə xatırlayır:** "Sentyabrın 29-da hərbi komissarlıqdan zəng gəldi. Eldar şam yeməyinin üstündən duraraq zəngə cavab verdi. Dedilər ki, on beş dəqiqə ərzində sizə çağırış gələcək. Gözləməyə səbri çatmadı. Dərhal komissarlığa getdi. Beləliklə, səhəri gün müharibəyə yollandı. Hamımız ondan narahat olsaq da, heç birimiz saxlaya bilmədik. Hər gün ya zəng edir, ya da 1-2 sms yazırdı. Səsi ilə bizə həmişə ruh yüksəkliyi verirdi. Bizə "ön cəbhədə deyiləm" deyərək təsəlli verməyə çalışırdı. Axırıncı dəfə oktyabrın 12-də danışmışdıq. Torpaqları aldığımıza görə sevinirdi. İrəli getdiklərini və yaxın günlərdə daha böyük qələbələr qazanacaqlarını deyirdi. Hər dəfə danışanda söyləyirdi ki, buralar deyilən kimi gözəldir. Füzulidə olanda xəbər verdi: "Anamın vətənindəyəm". Arzuları çox idi. Danışanda qayıdandan sonra ev tikdirəcəyi, ailə həyatı quracağı barədə planlarından söz açırdı. Belə qardaşla necə qürur duymayasan? Dayımız Əbilov Əfsər Birinci Qarabağ müharibəsində şəhid olmuşdu. Eldar onun qanını yerdə qoymadı. Buna əminəm!".

**Kənan Novruzov**